# Tarixin daha bir əlamətdar günü



*Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Prezident səlahiyyətlərini icra etməyə başlaması vətəndaş arzusunun, xalq inamının, müstəqil dövlətçiliyin qorunması üçün siyasi iradənin təntənəsi idi. Xalqların, dövlətlərin üzləşdikləri fəlakətlərin aradan qaldırılmasında məsuliyyət daşıyan şəxsiyyətlərin mövqeyi böyük əhəmiyyətə malikdir. Bir çağırışla xalqının xilaskarına çevrilən Heydər Əliyev Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Millətinin bir əsrdə qurduğu ikinci müstəqil dövləti qoruyan Ümummilli Lider yenidən hakimiyyətə qayıdışı ilə problemlər məngənəsində qıvrılan Azərbaycanı regionun lider dövlətinə çevirdi.*

## Ali Sovetin 24 iyun 1993-cü ildə keçirilən iclasının qərarı ilə Prezident səlahiyyətləri sədr Heydər Əliyevə verilməklə ölkə həyatında mühüm dəyişikliklərin əsası qoyuldu

1991-ci ildə müstəqilliyimizi bərpa etdiyimiz gündən 1993-cü il iyun ayının 15-dək olan dövr xalqımızın həyatında ən çətin, keşməkeşli, xaotik bir dövr idi. Cəmiyyətdə hadisələrin axarına düzgün təsir edə bilməmək həmin dövrdəki iqtidarın bacarıqsızlığının nəticəsi idi. Ölkə məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Şimalda və cənubda separatçılar çirkin niyyətlərini həyata keçirməyə çalışırdılar. Ölkədəki vəziyyəti görən düşmən cəbhədə xeyli fəallaşmışdı. AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqlarımızın işğalı ilə nəticələnmişdi. Yalnız əllərindəki hakimiyyəti qoruyub saxlamağı düşünən səriştəsiz "bəy"lər ölkəmizdə faciələrə səbəb olmuş, günahsız insanların həlak olmuşdular. Dövlət əmlakının talan edilməsi isə xalqı acınacaqlı duruma salmışdı. 1993-cü ilin əvvəlindən Bakıda siyasi böhran dərinləşməkdə davam edirdi. İyunun 4-də Gəncədə Azərbaycan ordusunun o vaxtkı korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş vermişdi. Onun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı hökumətin həyata keçirdiyi əməliyyat uğursuzluqla nəticələndi. Ölkə vətəndaş müharibəsi ilə üz-üzə qaldı.

Müstəqilliyimizə təhlükə olan Gəncə hadisələri Azərbaycanın hərtərəfli məhvinə yönəldilmiş cinayət, hər an alovlana biləcək bir qığılcım idi. Korpus komandiri Surət Hüseynovun qiyamı, torpaqlarımızın itirilməsi ilə nəticələnən hadisələr, əvvəlcədən planlaşdırılmış xəyanətkar gedişlər vəziyyəti daha da gərginləşdirirdi.

Paytaxtda baş verənləri narahatlıqla izləyən və ölkəni uçuruma aparan vəziyyətin gərginləşməsinin sonda fəlakətlə nəticələnəcəyini uzaqgörən siyasəti ilə dərk edən ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin birgə iclasında vəziyyət geniş təhlil olundu və hadisəyə münasibət bildirildi. "İyun ayının 4-də Gəncə şəhərində başlanmış və bu günə qədər davam edən hadisələr bizdə ciddi narahatlıq doğurur. Şəhərdə qan tökülüb, normal həyat pozulub, Faktiki olaraq vətəndaş müharibəsi başlanıb. Müstəqil Azərbaycan Respublikasının indiki ağır və keşməkeşli, tarixən məsuliyyətli bir dövründə baş verənləri dəhşətli hadisə kimi qiymətləndirir, qardaş qanı tökülməsini pisləyirik... Bunların qarşısı dərhal alınmalıdır. Hamını bu yolda milli birliyə, vətəndaş həmrəyliyinə dəvət edirik" söyləyən ulu öndər Heydər Əliyev müdrik siyasətçi, təcrübəli dövlət başçısı kimi xalqı birliyə çağırdı.

İnsanların qənaəti bu idi ki, hakimiyyətdə olan səriştəsiz iqtidar belə çətin məsələləri həll etmək gücündə, bacarığında deyil. Belə bir məqamda Heydər Əliyev Azərbaycanın gələcəyi naminə, xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 9-da Bakıya gəldi və fəal siyasi iş aparmağa başladı. İlk növbədə, vəziyyətlə yerində tanış olmaq üçün bir qrup ziyalı ilə birlikdə Gəncəyə yola düşdü. Bütün imkanlardan istifadə edərək silahlı qarşıdurmanın qarşısını aldı. Ölkə parlamentin sədri, baş nazir, güc nazirliklərinin başçıları istefa verməklə məsuliyyətdən yaxa qurtarmağa cəhd etdilər. Azərbaycanın olduqca çətin və gərgin günlərində daxili çəkişmələr, erməni təcavüzü, o cümlədən digər separatçı qüvvələrin fəallaşması dövləti eyni anda yaxaladığı bir zamanda vəziyyətdən çıxış yolu tapmaq çox çətin idi. Sonralar Ulu öndər bu məsələ ilə bağlı bildirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədən başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

İyunun 15-də Heydər Əliyev xalqın təkidli tələbi, yenilməz iradəsi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu respublika həyatında çox mühüm bir hadisə oldu. Bu siyasi qayıdış, sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəyin Bakını tərk edərək Naxçıvana, Kələki kəndinə getməsi paytaxtda vəziyyəti daha da gərginləşdirdi. Ali Sovetin 24 iyun 1993-cü il tarixli iclasında Prezident səlahiyyətlərinin sədr Heydər Əliyevə verilməsi barədə qərar qəbul edildi və Ulu Öndər prezident səlahiyyətlərini öz üzərinə götürməklə ölkədə yeni mərhələnin başlanğıcını qoydu.

Ulu Öndər Prezident səlahiyyətlərini icra etməyə başlaması ilə əlaqədar bildirmişdir: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

1993-cü ilin 15 iyun - Qurtuluş Günündən oktyabrın 3-nə kimi həm parlament sədri, həm də prezident səlahiyyətlərini icra edən şəxs kimi Heydər Əliyev ilk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvləri aradan qaldırdı. Dövlət idarəçiliyinə yeni nəfəs, yeni imic gətirən Ulu Öndər qısa zaman kəsiyində siyasi düzənin ruhunu dəyişərək "mikrafon qəhrəmanlarına" siyasi mədəniyyət, demokratiya dərsi keçdi. Buna qədər əlbəyaxa döyüş və vulqar leksikon məkanına çevrilən Azərbaycan parlamenti Heydər Əliyevin sədrliyi ilə mövzuların, problemlərin həll olunmasının ən sivil müzakirə ünvanı oldu. Bu dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görüldü. Ulu Öndər ilk gündən etibarən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini daim diqqət mərkəzində saxladı və bu istiqamətdə davamlı islahatların reallaşdırılmasını təmin etdi. Ölkədə ictimai-siyasi sabitliyin bərpası üçün gərgin iş aparıldı, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edildi. Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. Bunlarla yanaşı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik xarici siyasət kursu nəticəsində ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. Dünya ictimaiyyəti də, dünyanın böyük dövlətləri də inanırdı ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev yaranmış vəziyyəti düzəldəcək, Azərbaycanı siyasi xaosdan çıxardacaq. Belə də oldu.

Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı üzləşdiyi təhlükədən qurtarmaqla bərabər özündə yeni siyasi, iqtisadi, hüquqi, ideoloji, mənəvi zəmində fərqli situasiyanın formalaşması kimi olduqca geniş bir spektri əhatə etdi. Bu da öz növbəsində ən dəyərli milli sərvət hesab olunan müstəqilliyin əbədiliyini, dönməzliyini, sarsılmazlığını təmin etdi. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün inkişaf dövrünü yaşayır. Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalan Prezident cənab İlham Əliyev müstəqil ölkəmizi gələcəyə doğru inamla aparır. İnkişaf edən və müasirləşən respublikamız regionun lider dövlətinə, xüsusilə dünyanın enerji təhlükəsizliyinin etibarlı təminatçılarından biri kimi özünün iqtisadi, siyasi və hərbi qüdrəti ilə qarşıya çıxan istənilən problemi həll etməyə qadir dövlətə çevrilib. Milli maraqlara əsaslanan siyasət, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, uğurlu diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində respublikamız dünya dövlətləri arasında söz sahibi olub. Prezident İlham Əliyevin sadiq və nümunəvi silahdaşı kimi Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyatımızın bütün sahələrini əhatə edən, ən ali prinsipləri və normaları özündə əks etirən əməli fəaliyyəti ölkəmizin dünya birliyində öz layiqli yerini tutmasında mühüm rol oynayır.

Ən mühüm məqam isə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi və ərazi bütövlüyümüz bərpa olundu. Bir sözlə, 24 iyun 1993-cü ildən başlanan müasir dövlətçilik yolumuz bu gün də Ulu öndər ideyaları ilə davam etdirilir. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə məhz Ulu öndər tərəfindən əsası qoyulan yolun uğurla davam etdirilməsi nəticəsində reallaşdı. Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Çünki bu gün Heydər Əliyev siyasəti yaşayır, onun ideyaları yaşayır, onun qurduğu müstəqil dövlət yaşayır və güclənir. Prezident İlham Əliyevin davam etdirdiyi varislik siyasəti ümummilli lider Azərbaycanı dünyada tanıtdı, fərqləndirdi, nüfuzunu artırdı. Hazırda Azərbaycan dünya birliyində vədinə sadiq etibarlı tərəfdaş, ölkələrin enerji təchizatının təminatında rolu artan qüdrətli ölkədir.

**Mustafa KAMAL,**
**"Respublika".**